Elvin QARAYEV
AMEA, Şəki Regional Elmi Mərkəzi,
Ekoloji Coğrafiya şöbəsi
E-mail: elvin_qarayev_1993@mail.ru
ORCİD-0000-0002-5496-744X
https://doi.org/10.59849/2309-7949.2025.1.136

AZƏRBAYCANIN ŞİMAL-QƏRB BÖLGƏSİNDƏ YAŞAYAN RUTULLARIN FOLKLORU: BAYATILAR, ATALAR SÖZLƏRİ VƏ NƏĞMƏLƏR

Açar sözlər: rutul, folklor, multikultural, region, xalq, etnos

Summary
Elvin Garayev
Folklore of ruties living in the north-western region of Azerbaijan: bayati, proverbs and songs

The article talks about the folklore of the Rutuls, representatives of a small number of peoples living in the northwestern region of Azerbaijan. The folklore of the Rutuls living in the region is involved in the research. Just as the folklore of each small nation has its own uniqueness, the folklore of the Rutuls also has its own uniqueness. It is in this article that the specific characteristics of rutuls are discussed. In the research work, information was provided about bayatis, which are part of Rutul folklore, proverbs and songs in Rutul language, used by Rutul elders. The peculiarities of bayatis, songs and proverbs are discussed here.
Key words: rutul, folklore, multicultural, region, people, ethnos

Резюме
Эльвин Гараев
Фольклор рутулов, живущие в северо-западном регионе Азербайджан: баяти, пословицы и песни

В статье говорится о фольклоре рутулов, представителей небольшого числа народов, проживающих в северо-западном регионе Азербайджана. В исследовании задействован фольклор рутул, проживающих в регионе. Как фольклор каждого малого народа имеет свою уникальность, так и фольклор рутул имеет свою уникальность. Именно в этой статье рассматриваются специфические характеристики рутулов. В ходе исследовательской работы были предоставлены сведения о баятах, которые являются частью рутульского фольклора, пословицах и песнях на рутульском языке, используемых рутульскими старейшинами. Здесь обсуждаются особенности баятов, песен и пословиц.
Ключевые слова: рутул, фольклор, мультикультурный, регион, люди, этнос

Giriş. Azərbaycan multikultural və tolerant bir ölkədir. Respublikamızın müxtəlif bölgələrində bir-birilə qardaş kimi müxtəlif xalqlar yaşayır. Respublikamızın hər bölgəsi etnik cəhətdən zəngin olduğu kimi, həmin xalqların folkloru da olduqca zəngindir. Ümumiyyətlə respublika folklorunun formalaşmasında region folklorunun rolu böyükdür (1). Hal-hazırda bölgəmizdə yaşayan bütün xalqlar və

etnik qruplar bir-birinə qarşı xoş ünsiyyət, münasibət göstərir. Respublikamızın şimal-qərb bölgəsində müxtəlif xalqlar yaşayır ki, buna görə də folklor cəhətdən də bu öz zənginliyi ilə seçilir. Azərbaycanda müxtəlif etnoslar yaşayır ki, bu etnoslardan biri də şimal-qərb bölgəsində yaşayan rutullardır. Ümumiyyətlə rutullar tədqiqatçılar üçün maraqlı tədqiqat kimi qəbul olunur (2). Rutulların tarixi Qafqaz Albaniyası ilə bağlıdır. Məhz XIII-XV əsrlərdə Cənubi Dağıstan ərazisində mövcud olmuş iri siyasi birliklərdən biri də Rutul idi. XV-XVI əsrlərdə güclənərək özünün xüsusi dəstəsini yaratmış kəndi Xnov kəndi olmuşdur. Görkəmli qafqazşünaz alim L.İ.Lavrovun araşdırmalarında rutullar haqqında məlumat verilmişdir. Burda Rutulun iri feodal qurum olduğu göstərilir. Əsrlər boyu rutulların üzərinə xəzərlər, monqollar, farslar hücum etmiş, ancaq buna baxmayaraq bu xalq qəhrəmancasına vuruşaraq müqavimət göstərmişdir (3). 1741-ci ildə Nadir şahın qoşunun rutulların üzərinə hücumu zamanı onların döyüşkən xalq olduğu haqqında aydın təsəvvür yaradır. L.İ.Lavrovun qənaətinə görə XII əsrdə rutullar arasında islamın möhkəmləndiyi göstərilir (4).

İşin məqsədi. Respublikamızın şimal-qərb bölgəsində yaşayan azsaylı xalqlardan olan rutulların folklorunun bir hissəsi olan atalar sözləri, bayatılar, nəğmələri toplamaq, araşdırmaq əsas məqsəddir. Bu sahədə toplama aparmaq əsas vəzifədir.

Əsas. Bütün bunlarla yanaşı rutulların zəngin folkloru vardır. Ümumiyyətlə rutul yaşlı nəslin nümayəndələrinin gözəl deyimləri vardır. Bura həm atalar sözləri, həm dedikləri bayatılar və dedikləri nəğmələr daxildir (5).

Rutul atalar sözləri və deyimləri Rutul folklorunun əsasını təşkil edir. Rutul atalar sözlərindən aşağıdakıları misal göstərə bilərik.

- *Yeylaxa lixhımıd yə ç`ar yə xasiyət kiykasi*
  (Eyni yaylaqda otlayanların ya tükləri ,ya da xasiyyətləri oxşar olar)
- *Ublus suda ki kıvınə maa ç`alagxdiil kavaqhas diş.*
  (Canavarı nə qədər yedizdirsən də,yenə də meşəyə girməz)
- *Mık q`ıldıqır t`ulq`at`i*
  (Buz nazik yerindən çatlar)
- *Tanbaldı yıimaıləs palan ki sa xəl ki*
  (Tənbəl eşşəyə palan da ağır yükdür)
- *Aldara yats lipxhudə aa yıimal vəşədvi*
  (Yuxarıda öküzün ayağı sürüşəndə aşağıda eşşək ağlayar)
- *Xhəd qhaıaıtxıir, kubkuxdax xıl qhama`.*
  (Su axıb gedəndən sonra köpüyünə əl atma)
- *Ğuas çıqay mannas ki ma`.*
  (Özün üçün istəmədiklərini özgələrinə də arzulama)
- *Suvq`udu aslanala luvzudu çaq`al diri vii.*
  (Yatmış aslandansa, ayıq çaqqal qorxuludur)
- *Xaina q`ış linsəddiş.*

(Xain adam piylənməz)(varlanmaz) (6).

- *Ğu kapıraxhan yıxıidi ğuc xhıvaxhan yıix.*
  (Səni xəncərlə vuranı sən çörəklə vur)
- *Yik`is ğaçagud ulus ğavaqad diş.*
  (Qəlbin görmədiyini göz görə bilməz)
- *Kaçılmıxda vıxhıdı ubramıkia ki vişir.*
  (Buynuzdan ötrü getdi,qulağınıda itirdi)
- *Livxhidı viq`iddiş.*
  (Otlayan ölməz)(xəstəlikdən sonra)
- *Ubluk` təxh kipt`ə ha`vırvi.*
  (Canavara qoyun tapşırılıb)
- *Haldı k`at`ırda kış ha`vıdı idə.*
  (Kimin toyuğuna kış deyib) (7).
- *Ədəmiy kəliməta luçurzanəşdə papaq əğləvir yelix lavaak'k'al (Kişi sözünün üstündə durmağı bilmirsə, papağını yaylığa dəyişmək lazımdır).*
- *Silahadı y'ık'ada yuxar yişin, təlidə lı'ınıla yıxai Topda arıq olmaq, qarmaqda yaxşı qidalanmaqdan daha yaxşıdır.*
- *Kapır k'ulaklad yişik'k'al, ğaxda yılaqad yik yiinəşdə. Xəncər taxta olsun, ancaq sənin dəmir ürəyin varsa!*
- *Yugdu ədəmiyərə kixid xal sa xidilnara halxa haar*
  Sa xidilnara kixid xal yugdu ədəmiyədə halxa haas rukus (yeddi kişinin yaratdığı evi bir qadın yıxır, bir qadının tikdiyi evi yeddi kişi yıxa bilmir)
- *Kişinin papağı samanlıq olar (8).*

❖ **Rutul ağsaqqalları və ağbirçəklərin istifadə etdiyi bayatılar :**

1. Bu tala otlu tala
Başı buludlu tala
Aslanlar küsüb gedir
Qaldı bir quru tala.

2. Qızıl üzük məndə
Axtarma cibimdə
Dünya dolu yar olsa
Mənim gözüm səndə (9).

3. Dəyirmana daş gərək
Yara qələm, qaş gərək
Neylirəm qoca yarı
Mənə on beş yaşlı gərək.

6. Qızıl üzük məndə
Verdim anam saxladı
Anama qurban olum
Məni təzə adaxladı

7. Ağ kələğayı almışam
Sağ cibimə salmışam
Uzaqda olan yarı
Sağ -salamat görmüşəm.

8. Üzük-üzük deyirlər
Barmaq nazik deyirlər
Qoy barmağın böyüsün
Yarım nazik deyirlər (12).

4. Qayadan ana gördü.
Salam verdi məni gördü.
Sən ovçu, mən maral.
Çıxıb dağları gördü (10).

5. Gedirəm daş bulağa
Suyu sərxoş bulağa
Kəndçiyəm yanıqlıyam
Deyərəm yaş bulağa (11).

9. Dağa – daşa bax
Gülüb razı bax
Yar yadına düşəndə
Salavat dağına bax

10. Yağıram yağış ki
Qaçaram pamış kimi
Oğlana qız yaraşır
Xancana yapış kimi (13)

Lilaybır

Təknə bağa gül lirk'aş lilay lilay
Ğax'an yəzid gül sulkaş maral xanım
Ğu ğadişdi dünyə vıqaş lilay-lilay
Can dəydi riş, dəydi riş maral xanım
Vətən yada düşəndə lilay-lilay
Salavat dağına bax maral xanım
Qunşiyəşdi rişiymaşık lilay lilay
İrdi bexnak ul kapkır maral xanim
Suvad cıqa çətin i lilay lilay
Halıd kar utkur idə maral xanım (14)

Mıx′adi mahnısı

Yuk'du suvadı yık'a adı ay Mıx'adı
Ğu cənəttis k'inə vii can Mıx'adı
Sin cıqa suvad cıqa can Mıx'ad
Miz itti vii ğudu can Mıx'ad
Yik' şad yişik' Mıx'abışıd hammaşə
Baxtlı dişik Mıx'abışıd rişbir
Yik' şad yişik' Mıx'abışıd hammaşə
Baxtlı dişik Mıx'abışıd rişbir
Ay Mıx'abır, Mıx'abır, Mıx'abır
Can Mıx'abir, Mıx'abır, Mıx'abır (15)

Rutul şeiri

Ağayçur maramə gümüdi xıla
Surdu ariy yıx′ır, surdu huriy
Maramə nəstədkal ağuy, kuğuy ğada
Ay hupx′udu m′u′k′ Bı′çad′ı
Mal-qara leykır sartanay hərsa yəylaxa
Davat vaay əmir lurzanay ğudu çeylaxa
H′uş ak′uğur ğudu quşey nənədi bulaxa
Ay hupx′udu m′u′k′ Bı′çad′ı

Yik′i avğur yəs ğudu k′ırışmay
Yic rux′ur, yixdi Bı′çad′ı vay
Ay hupx′udu m′u′k′ Bı′çad′ı
Yik′i avğur ğudu k′uludadı
Baladı yişir k′aliy havıdı
Səkki yişiş ak′ıl adı
Ay hupx′udu m′u′k′ Bı′çad′ı
Sa-k′a′d′ bənd hux′us yıqar yəs ğada
Şad ru′k′u′r a′k′uğ′uy ğaqudə suvala
Maramə nəstək′al ağ′uy-k′uğ′uy ğada
Ay hupx′udu m′u′k′ Bı′çadı
Nənək′uşa rux′udi, ninə
Nəsdəd ğuğud hinə cehilər
Yic rux′ubur ütkür imə?
Ay hupx′udu m′u′k′ Bı′çadı
Rişbir ad xal haanay tavluda
Kəğəridi rişərə harsanay cirə-cis dalda
Rux′unay havasad karbır ğada
Ay hupx′udu m′u′k′ Bı′çadı
Yəylaxanala fağayç′ur atarbı
Ğ′un′a tüfəng, y′ı′k′a qatarbı
Hinə irdi ipakad dun laabı
Ay hupx′udu m′u′k′ Bı′çadı (16).

Can q′ari

Ğu yix′di namus vicdanri-vicdanri
Ğu yix′di dərdədi dərmanri-dərmanri
Ğu yix′di dərdədi duxturi-duxturi
Ğu yix′di dindid imanri-imanri
Şiv yıxa ğu yəs rişid can qari
Şiv yıxa ğu yəs rişid can qari
Bıç′k′aldı, bıç′k′aldı, bıç′k′aldı
Bıç′k′aldı, bıç′k′aldı, bıç′k′aldı can qari
Ğuc haadinay xaşid k′ink′al can qari
Ğuc haadinay xaşid k′ink′al can qari
Hamı halıra k′aasdə misəd k′ink′al ay qari
Hamı halıra k′aasdə misəd k′ink′al ay qari
Şiv yıxa ğu yəs rişid can qari
Şiv yıxa ğu yəs rişid can qari
Bıç′k′aldı, bıç′k′aldı, bıç′k′aldı
Bıç′k′aldı, bıç′k′aldı, bıç′k′aldı can qari
Şiv yıxa ğu yəs rişid can qari (17).

Nəticə. Folklorşünaslığın aktual məsələlərindən biri azsaylı xalqların folklor nümunələrinin toplanması və tədqiqidir. Şimal-qərb bölgəsinin folkloru çox zəngindir. Şimal-qərb bölgəsində yaşayan azsaylı xalqların nümayəndələrindən olan rutulların folkloru ümumi folklorun zənginləşməsində mühüm rol oynayır. Məqalədə qeyd etdiyimiz rutul atalar sözləri, bayatılar və deyimlər çox maraqlı bir informasiyadır. Qeyd etdiyimiz məlumatlar həm tarixi, həm də rutul xalqının araşdırılması cəhətdən maraqlı mənbədir.

ƏDƏBİYYAT

1. AMEA-nın Folklor İnstitutu. Azsaylı xalqların folkloru -1. Bakı, Elm və təhsil, 2014, s 208.
2. AMEA-nın Folklor İnstitutu. Azərbaycan folklor antologiyası. XIII Cild. Bakı, Səda, 2005, s 547.
3. Mətanət Yaqubqızı. Azərbaycan folklorunda tolerantlıq və multikulturalizm. Bakı, Elm və təhsil, 2006, s 184.
4. Qarayev E., Hüseynova S. The small rutul people are part of a sıngle Azerbaijanı famıly. Gənc Tədqiqatçı, 2023 № 3, səh 126-134.
5. Qarayev E. Rutullar: tarixdən bu günə. Elm və həyat 2024 № 2. Səh 98-101
6. Qarayev E., Adışirinov T. Azsaylı rutul xalqının folkloruna bir baxış. Dədə Qorqud 2024 № 3, səh 121-127.
7. Region folklor antologiyası. Bakı. Elm və təhsil, 2018, s.512.
8. Лавров Л. И. Рутульцы // Народы Дагестана: сборник статей. — Изд-во Академии наук СССР: М., 1955. — С. 195
9. Лавров Л. И. Этнография Кавказа. : по полевым материалам 1924-1978 гг. — “Наука”, Ленинградское отд-ние, 1982. — С. 146. — 223 с.
10. Ихилов М. М. Материалы по этнографии рутулов и цахур // Краткие сообщения Института этнографии АН СССР. — М., 1960. — Вып. XXXIII. — С. 28.
11. Михаил Алексеев, Казенин К. И., Мамед Сулейманов. Дагестанские народы Азербайджана: политика, история, культур. — М.: Европа, 2006. — С. 88. — ISBN 5-9739-0070-3.
12. Абдул-Рашид Гаджиевич Гаджиев. Происхождение народов Дагестана. — Эльбрус, 1996. — С. 245
13. Сократ Борчинский. «О проблемах шекинских рутульцев». Çernovik .Номер газеты: 2007-05-18 №20
14. Ихилов М. М. Материалы по этнографии рутулов и цахур // Краткие сообщения Института этнографии АН СССР. — М., 1960. — Вып. XXXIII. — С. 26.
15. https://multikultural.az/az/medeni-muxteliflik/595/rutullar-tarix-medeniyyet-din/
16. http://samurpress.net/story.php?sid=2262
17. https://az.wikipedia.org/wiki/Rutullar